**Dövlət Statistika Komitəsində 20 Yanvar faciəsinin 25-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilmişdir.**



2015-ci il 20 yanvar tarixində Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsində 20 yanvar hadisələrinin 25-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilmişdir. Tədbir 20 yanvar faciəsi şəhidlərinin əziz xatirəsinin 1 dəqiqəlik sükutla yad edilməsi ilə başladı. Mərasimi giriş sözü ilə açan Dövlət Statistika Komitəsi sədrinin birinci müavini cənab Həmid Bağırov bildirmişdir ki, 20 Yanvar Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur. 1990-cı ilin 20 yanvarında keçmiş sovet dövlətinin Azərbaycan xalqına qarşı həyata keçirdiyi bu qətliam insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qara səhifə olaraq qalacaqdır. Sovet ordusu əsgərlərinin Bakıda törətdiyi bu faciənin təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı törədilmiş cinayət olduğunu, doğma Azərbaycanımızın azadlığı uğrunda canından keçmiş şəhidlərimizin xatirəsinin hər zaman uca tutulacığı bildirilmişdir.

Daha sonra çıxış edən Dövlətstatkomun Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Elbrus Quliyev və Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsi müdirinin müavini Malik Heydərov erməni millətçilərinin ölkəmizə qarşı bitib-tükənməyən ərazi iddialarına etiraz əlaməti olaraq öz torpaqlarının müdafiəsinə qalxmış xalqımıza vəhşicəsinə divan tutulması, yüzlərlə insanın həlak olması, yaralanması, həbs edilməsi, itkin düşməsi barədə ətraflı məlumat vermişlər.







